# Mənim seçki hüququm və öz hüquqlarımı müdafiə etməyim

Asan oxunuş



2025-ci il

Sənəd Gürcüstan Daun Sindromu Assosiasiyası tərəfindən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (UN OHCHR) maliyyə dəstəyi ilə hazırlanmışdır.

Sənədin məzmununa tam məsuliyyəti Gürcüstan Daun Sindromu Assosiasiyası daşıyır və orada ifadə olunan fikirlər BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının baxışlarını əks etdirməyə bilər.

# Bu dərslik nə haqqındadır?



| | |
|---|---|
|  | Bu dərslik bizə seçkilərdə iştirak hüququnu və bu hüququn qorunmasını öyrədir. |
|  | Sən seçkilərin nə olduğunu öyrənəcəksən. |
|  | Seçkilərlə bağlı yeni sözlər və terminlər öyrənəcəksən. |
|  | Seçkilərdə iştirak hüququnu necə qoruya biləcəyini anlayacaqsan. |
|  | Seçkilərin niyə vacib olduğunu öyrənəcəksən. |

# Sözlərin izahı



| | |
|---|---|
|  | **Seçkilər** – insanların mühüm qərarlar qəbul edən və ölkəni idarə edən şəxsləri seçməsi prosesidir. |
|  | **Demokratiya** – xalqın öz idarəçilərini seçdiyi sistemdir. Xalq tərəfindən seçilmiş rəhbərlər qərarlarını xalqın maraqlarına uyğun verməlidirlər. |
|  | **Seçki hüququ** – hər bir vətəndaşın seçkilərdə iştirak etmək imkanıdır. Sən ölkəni idarə etməsini istədiyin insanları seçirsən. |
|  | **Ədalət** – bütün insanların bərabər hüquq və imkanlara malik olmasıdır. |
|  | **Vətəndaş** – ölkədə yaşayan, onun qanunlarına riayət edən və seçkilərdə iştirak edən şəxsdir. |
|  | **Nümayəndə** – hər hansı bir qrupun, təşkilatın və ya şəxsin adından çıxış edən və onun maraqlarını qoruyan şəxs. |

| | |
|---|---|
|  | **Özünü müdafiə (öz hüquqlarını qoruma)** – insanın öz maraqlarını və hüquqlarını müstəqil şəkildə qoruması. Özünü müdafiə edən şəxs öz hüquqlarını özü müdafiə edir. |
|  | **Konstitusiya** – ölkənin əsas qanunlar toplusu, hansı ki, dövlətin idarəetmə qaydalarını müəyyənləşdirir. |
|  | **Seçki hüququ** – hər bir vətəndaşın seçkilərdə iştirak edib öz nümayəndələrini seçmək imkanı. |
|  | **Seçki administrasiyası** – seçkiləri təşkil edən və keçirən qurum. |
|  | **Qərar qəbul edən** – müxtəlif məsələlər üzrə qərarlar verən şəxs və ya təşkilat. Bu, dövlət qurumu, idarəetmə orqanı və ya komitə ola bilər. |

| | |
|---|---|
|  | **İnkluziya** – bütün insanların bərabər hüquq və imkanlara malik olması. İnsanlar fərqli ola bilər, lakin hamının eyni hüquqları var. |
|  | **Maneə** – insan üçün çətinliklər yaradan baryerlər. |
|  | **Maneə** mümkündür ki fiziki, emosional, sosial və ya digər çətinliklər olsun, hansı ki, insanın və ya qrupun məqsədinə çatmasına mane olur. |
|  | **Siyasət** – ölkənin idarə olunması. Siyasət, dövlətin necə fəaliyyət göstərəcəyini və cəmiyyətin problemlərinin necə həll ediləcəyini müəyyənləşdirir. |
|  | **Kampaniya** – müəyyən bir mesajın yayılmasını və ya dəyişikliklərin həyata keçirilməsini hədəfləyən fəaliyyət (məsələn, 21 martda keçirilən "Rəngarəng corablar" kampaniyası). |

# Seçkilərdə iştirak etmək niyə vacibdir?



| | |
|---|---|
|  | Seçkilərdə sən səni təmsil edəcək, hüquqlarını qoruyacaq və maraqlarını müdafiə edəcək insanları seçirsən. |
|  | Demokratiya və seçkilər bir-biri ilə bağlıdır. Demokratiya olmadan azad seçkilər mövcud deyil. |
|  | Seçki hüququ önəmlidir. Hər bir insan öz nümayəndəsini seçə bilər. |
|  | Seçilmiş nümayəndə vacib qərarlar qəbul etməli və xalqın maraqlarını qorumalıdır. |
|  | Demokratik ölkədə seçkilər ədaləti təmin edir. Hər bir vətəndaşın səsi eyni dərəcədə önəmlidir. |

| | |
|---|---|
|  | Unutmayın ki, seçkilərdə iştirak etməklə hər kəs ölkənin idarə olunmasında iştirak edə bilər. |
|  | Seçkilər vətəndaşlar üçün hakimiyyətin fəaliyyətini nəzarətdə saxlamaq üçün yaxşı vasitədir. |
|  | Seçilmiş şəxslər vətəndaşlara öz fəaliyyətləri barədə hesabat verməyə borcludurlar. |
|  | Seçilmiş şəxslər biləndə ki, xalq onların yerinə başqalarını da seçə bilər, daha yaxşı işləyəcək və xalqın maraqlarını qoruyacaqlar. |
| ! Xatırlayın | Təkcə seçkilər hər şeyi dəyişə bilməz, amma seçkilər olmasa, heç nə dəyişməz. |

# Niyə öz hüquqlarımızın müdafiəçisi olmalıyıq?



| | |
|---|---|
|  | Gürcüstan Konstitusiyasına görə, vətəndaşlar 18 yaşından etibarən seçkilərdə iştirak etmək və öz fikirlərini sərbəst ifadə etmək hüququna malikdirlər. |
|  | Lakin hələ də seçki hüququndan tam istifadə edə bilməyən insanlar mövcuddur. |
|  | Öz hüquqlarını müdafiə etməklə sən onları özün qoruyursan. |
|  | Bu o deməkdir ki, insan öz hüquqlarını tanıyır və onları qorumaq bacarığına malikdir. |
|  | Öz hüquqlarını müdafiə edən şəxs qərarların qəbulunda fəal iştirak edir və özü müstəqil şəkildə qərarlar verir. |
| ! Xatırlayın | Öz hüquqlarını müdafiə etmək təkcə bir insanla bağlı deyil. Bu, qrupun ümumi maraqlarına xidmət edir və hamı üçün faydalı olacaq bir mühit yaratmağı hədəfləyir. |

| | |
|---|---|
|  | Öz hüquqlarını müdafiə etmək o deməkdir ki, eyni maraq və ehtiyaclara malik insanlar birgə qruplar yaradırlar. |
|  | Bu qruplar öz məqsədlərinə çatmaq üçün fəaliyyət göstərirlər. |
|  | Öz hüquqlarını müdafiə etməyin məqsədi müəyyən siyasət və ya yanaşmaları dəy-işdirməkdir. |
|  | Hüquqlarını müdafiə edən insanlar qərar qəbul edənlərə təsir göstərir, fikirlərini açıq şəkildə ifadə edir və siyasətçilərlə danışırlar. |
|  | Öz hüquqlarını müdafiə etməklə seçkilərdə iştirak etmək hüququnu qoruya bilərsən. |

# Seçkilərdə iştirak etmək hüququnu necə qoruya bilərsən?



| | |
|---|---|
|   | Seçkilərdə iştirak etmək hüququnu qorumaq üçün sən: |
|  | Ortaq maraq və ehtiyaclara malik insanları tapa bilərsən. |
|  | Dəqiq öyrənə bilərsən ki, nə sənin hüquqlarına təsir göstərir. Sənə mane yaradan nədir. |
|  | Plan qur: Problemləri necə həll edəcəksən. Bu suallara cavab ver: Hansı dəyişikliklərə ehtiyacın var? Bu dəyişikliklərə necə nail olacaqsan? |
|  | Problemin həlli üçün işləməyə başla. |